## ONLAR BİZİM QÜRURUMUZ, FƏXARƏTİMİZDİR!



Aqşin Şahin oğlu Novruzov 1998-ci il avqustun 15-də Bakı şəhərində anadan olub. Texniki-Humanitar liseyini bitirib. Ali təhsilini Əmək və Sosial Münasibətlər Akademiyasında alıb.

44 günlük Vətən müharibəsində biz təkcə Qarabağımızı azad etmədik, qazandığımız Zəfər bir daha sübut etdi ki, Azərbaycanın yeni nəsil gəncləri hansı vətənpərvərlik ruhunda böyüyərək torpaqlarımızın azadlığı uğrunda dəyanətli mübarizəsinin əzmini göstərdi. Vətən uğrunda şəhid olan hər bir övladımız bütün xalqın övladına çevrildi. Qazilərimiz ümumxalq məhəbbətini qazandı.

Şəhidlərimizin anım günü, doğum günü hamılıqla, bəşəri sevgiylə anılaraq yad edilir. Şəhidlərimizdən biri də mənim şagirdlərimdən olmuş Aqşin Novruzovdur. Tərbiyəli, saf qəlbli, cəsarətli bir oğul. Mən bir pedaqoq kimi şəhidlərimizin hər birini Aqşini gördüyüm tərbiyədə, məqamda duyuram, sevirəm. Onlar bizim qürurumuz, fəxarətimiz, Ucalıq məqamımızdır. Azadlıq simvolumuzdur..! Hər il xalqımızla şəhadət gününü qeyd etdiyimiz Aqşinə yazdığım şeirin bir bəndini də oxucularımızla paylaşıram:

VƏTƏN SAĞ OLSUN!-DEYİB CANINDAN KEÇƏN OĞUL,
DEYİLMƏMİŞ SÖZLƏRİ QƏLBİNDƏ QALAN OĞUL,
ŞƏHADƏTƏ QOVUŞDUN, SƏNİN YERİN ZİRVƏDİR,
MƏKANIN CƏNNƏT OLSUN, NUR İÇİNDƏ YAT AQŞİN!

Aqşin 2020-ci ilin yayında həqiqi hərbi xidmətə çağırılıb, 2-ci Qarabağ müharibəsində iştirak edib. Döyüşlərin əvvəlində ayağından yaralanıb, müalicə olunduqdan sonra yenidən ön cəbhəyə yollanıb. Topçu olaraq briqadası ilə birlikdə döyüşlər zamanı 2 düşmən tankını məhv edib. 13 oktyabr 2020-ci ildə Kəlbəcər istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin 15 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən "Vətən uğrunda", 29 dekabr 2020-ci il tarixli Sərəncamına əsasən isə "Kəlbəcərin azad olunmasına görə" medalı ilə (ölümündən sonra) təltif edilib.

**ALLAH BÜTÜN ŞƏHİDLƏRİMİZƏ RƏHMƏT ELƏSİN!**

*Zöhrə Seyidi*

## AZƏR MİKAYILOVUN ŞƏHADƏTƏ QOVUŞMASINDAN 3 İL ÖTÜR



Xüsusi Təyinatlı İkinci Vətən Müharibəsi şəhidi mayor Azər Əmrah oğlu Mikayılovun şəhadətə qovuşmasından üç il ötür. Azər Əmrah oğlu Mikayılov 1980-ci il avqustun 1-də Kəlbəcər rayonunun Quzeyçirkin kəndində anadan olub. Azərbaycan Ordusunun mayoru Azər Mikayılov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi üçün başlanan Vətən müharibəsi zamanı Cəbrayılın azadlığı uğrunda gedən döyüşlərdə savaşıb. Azər Mikayılov oktyabrın 8-də Cəbrayıl döyüşləri zamanı şəhid olub.

Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində xüsusi xidmətlərinə və işğal olunmuş ərazilərin azad olunması zamanı düşmənin məhv edilməsi üzrə qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirən zaman göstərdiyi qəhrəmanlıq nümunəsinə görə, həmçinin hərbi qulluq vəzifəsini yerinə yetirən zamanı igidliyin və mərdliyin nümayiş etdirilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 09.12.2020-ci il tarixli Sərəncamına əsasən Azər Mikayılov "Qarabağ" ordeni ilə təltif edildi.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin 15.12.2020-ci il tarixli Sərəncamına əsasən Azər Mikayılov ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edildi.

Azərbaycanın Füzuli rayonunun işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə Azərbaycan Prezidenti İlham Əliyevin 25.12.2020-ci il tarixli Sərəncamına əsasən Azər Mikayılov ölümündən sonra "Füzulinin azad olunmasına görə" medalı ilə təltif edildi.

# AYIQ ADAMIN SAYIQLAMASINA NECƏ BAXIRSINIZ?

**Bir neçə müddətdir yediyi qaba tüpürən alim kimi özünü cəmiyyətə sırıyan birisi- Həbib Zərbəliyev adlı İndoneziyaşünas bütün ömrünü elmə "həsr etmiş" və bu elmin son nəticəsini Azərbaycanın tanınmış ziyalılarından biri, yazıçı, dilçi-alim, Azərbaycan Xarici Dillər Universitetinin rektoru, akademik Kamal Abdullayevin və onun rəhbərlik etdiyi universitetin kollektivi barədə hədyanlar yazmaqda tapmışdır. Başı o qədər qarışıb ki, doğma qızının bu universitetdə İndoneziya mərkəzinin direktoru olmasını da unudub. Baxmayaraq ki, qızı heç indoneziyaşünas da deyil. Hətta paylaşdığı "xəfiyyə saatın" vasitəsilə qadınlardan da istifadə edib çəkdiyi videoların sayəsində bu saatı baha qiymətə satmaq üçün hərraca çıxarıb. Bu da elm adamı, vücud halına düşmüş alim.**

**Təhsil Nazirliyində işlədiyi vaxt qazandığı "hörmət" sayəsində oradan uzaqlaşdırılan bu professor özünü işlədiyi Azərbaycan Xarici Dillər Universitetində də tapa və ya yerləşdirə bilməyib. Fikirləşib ki, Milli Elmlər Akademiyası onun düşüncələri üçün münbit məkandır və yerləşdiyi AMEA-da da rahatlana bilmir. Ali Attestasiya Komissiyasının üzvü olduğu zamanda orada da yerləşə bilməyib. Dostlarının yaydığı məlumata görə, ona akademik Kamal Abdullayevə qarşı verilmiş sifarişlərin yerinə yetirilməsi üçün rahat məkan, boşluq məhz hörmətli İsa Həbibbəylinin rəhbərlik etdiyi AMEA-da geniş imkanlar var. Bu Həbib Zərbəliyev kimi birisinin hansı yala çox öyrəşməsi tam bəlli olmasa da, ayıq vəziyyətdə sayıq olmasına da şübhələr var. Hər dəfə feysbuk və özünəbab saytlarda əsassız iddialar irəli sürməklə zərbələr endirmək istəyən Həbib elə bilir ki, soyadınıyəni Zərbəliyevi doğruldur. İndoneziyaşünas olmaq yaxşıdır, onların müsbət cəhətləri də az deyil, gərək qəbilə təfəkkürünə varıb mənfi xüsusiyyətləri yayasan, ay Zərbəliyev? Axı sənin ziyalı təfəkkürünə sığmayan düşüncələrinə, əsassız ittihamlarına "layk" qoyanların akademik Kamal Abdullayevlə mərdanə mübarizəsinə nə mane olur. Yazdığına görə Kamal Abdullayev səni bir varlıq, vücud hesab etmədiyindən hədyanlarını məhkəmə müstəvisinə çıxarmır. Sənin də istəyin fikrimizcə budur ki, elm adamlarını belə cılız işlərə cəlb edib ölkədə ziyalı savaşı yaradasan. Bu da düşmən təxəyyüllü insanların tərzidir. Düşünürəm ki, əgər elm adamı kimi özünü görürsənsə, bu sayıqlamalardan əl çəkib ömrünün sonunu mənalı bir şeyə, əgər mümkünsə, həsr edəsən!**

*Füzuli İsmayılov,*
*"HAKİMİYYƏT" qəzetinin*
*Baş redaktoru,*
*AJB-nin üzvü*



# ƏKS-EPİDEMİK TƏDBİRLƏRƏ DAİR MAARİFLƏNDİRİCİ TƏLİMLƏR KEÇİRİLİB





Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin Sanitar-Karantin Xidməti tərəfindən "Astara", "Biləsuvar", "Qırmızı Körpü", "Beynəlxalq Dəniz Ticarət Limanı", "Hövsan", "Liman" və "Dübəndi" gömrük postlarında COVID-19 yoluxmasına qarşı əks-epidemik tədbirlərə dair maarifləndirici təlimlər keçirilib. Təlimlərə postlarda fəaliyyət göstərən bütün xidmət və nəzarət orqanlarının əməkdaşları cəlb olunub.

Təlimlər zamanı COVID-19 infeksiyası haqqında məlumat, yoluxmanın yolları və əlamətləri, həmçinin fərdi qoruyucu vasitələr və onların istifadə qaydaları barədə "Xüsusi təhlükəli infeksiyalara qarşı əks-epidemik tədbirlərə dair Təlimat"da əks olunan məlumatlar təqdim edilib.

Təlimlərin mütəmadi olaraq DGK-nın digər strukturlarında da keçirilməsi nəzərdə tutulub.

# CEYHUN KƏRƏMOV ELM VƏ TƏHSİL NAZİRLİYİ YANINDA PEŞƏ TƏHSİLİ ÜZRƏ DÖVLƏT AGENTLİYİNİN DİREKTORU VƏZİFƏSİNƏ TƏYİN OLUNUB

Lənkəranın Kərgəlan kəndində anadan olan Ceyhun Kərəmov Elm və Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru vəzifəsinə təyin olunub. İşinə məsuliyyətlə yanaşan bir insan kimi tanınır Ceyhun Kərəmov. Haqqında soruşulanlar: işini sevən, nəfsinə sahib, tamahı olmayan səmimi kadr kimi tanıyırlar onu. Yeni vəzifədə islahatların uğurla həyata keçirilməsinə maraqlı olacağına biz də inanırıq.

- Ceyhun Kərəmov 1998-1999-cu illərdə FLEX proqramını qazanaraq 1 təhsil ili ərzində ABŞ-da orta məktəbin 12-ci sinfində təhsil alıb.

- 1999-2003-cü illərdə Azərbaycan Dillər Universitetində avropaşünaslıq ixtisası üzrə bakalavr təhsili alıb.

- 2004-2006-cı illərdə ABŞ-ın Corciya Dövlət Universitetində dövlət idarəetməsi ictimai-siyasi analiz və qiymətləndirmə ixtisası üzrə magistr təhsili alıb.

- 2018-ci ildə Fransada yerləşən İNSEAD Biznes Məktəbinin Qlobal Biznes İdarəetməsi Proqramını bitirib.

Ceyhun Kərəmov 2006-2020-ci illərdə bp şirkətinin Azərbaycan nümayəndəliyində ekspert və rəhbər vəzifələrdə işləyib.



- 2007-2010-cu illərdə Xəzər Universitetində, 2018-ci ildən isə Bakı Ali Neft Məktəbinin tərkibindəki Layihə İdarəetmə Məktəbində, həmçinin ADA Universitetinin İctimai və beynəlxalq münasibətlər fakültəsində müəllim kimi çalışıb.

2020-ci ildə o, Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktor müavini vəzifəsinə təyin olunub, 2022-ci ildən hazırki təyinatadək isə həmin Agentliyin direktoru səlahiyyətlərini icra edib.

**Təbrik edirik. Uğurlar arzulayırıq.**

*Təsisçi:* Füzuli İsmayılov və redaksiyanın jurnalist kollektivi

*İdeya rəhbəri:* *Loğman Rəşidzadə*

*REDAKSİYA HEYƏTİ:*
*Eldar Quliyev (Respublika Ağsaqqallar Şurasının sədri, millət vəkili), Çingiz Başirov (alim-hüquqşünas), İlham Həsənov (professor, tarixçi-alim), Altay Mehdiyev (hərbi ekspert, ehtiyatda olan general-mayor), Məmməd Musayev (iqtisadçı-alim), Loğman Rəşidzadə (yazıçı pulisist, filoloq-alim), Süleyman Rəhmanov (nəqliyyat üzrə ekspert, təqaüddə olan polis zabiti), Əşrəf Qafarov (həkim-cərrah), Əflan İbrahimov (siyasətçi), Nadir İsrafilov (təhsil üzrə ekspert, İctimai Şuranın üzvü), Ali Akbar (Pakistanlı iş adamı)*

*Baş redaktor:* Füzuli Əfqanoğlu

*Redaktor:* Şəfi Əhmədov

*Məsul əməkdaşlar:*
Telman Bağırov,
Elvin İsmayılzadə,
Mehriban İsmayılzadə,
Dəyanət Kərimov

*Bank rekvizitlərimiz:*
Kapital Bank ASC-nin
Nəsimi rayon filialı
"Hakimiyyət" qəzeti
VÖEN 1400875811
Hesab №
AZ67AIIB40060019440409430111

Qəzet 1994-cü ildə Mətbuat və İnformasiya Nazirliyində rəsmi qeydiyyata alınaraq, 173-saylı şəhadətnamə ilə fəaliyyət göstərir
Qəzet redaksiyanın "Jalə" kompüter mərkəzində yığılaraq "Son dəqiqə" mətbəəsində çap olunub.

Tiraj: 1550

*Ünvan:* Bakı, Azadlıq pr. 161 B
*Telefon:* (050) 680-99-76
E-mail: *hakimiyyet@gmail.com*
*hakimiyyet.tv@gmail.com*

*Bizi sosial şəbəkələrdə izləyin:*
*Facebookda: Hakimiyyət qəzeti,*
*İnstaqramda: Hakimiyyət Qəzeti*
*Youtube-da: Hakimiyyet TV*
*Tvitterdə: HakimiyyetC*